www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-17 (1778) 16 oktyabr 2023-cü il



## Bakıda VIII Tibb Təhsili üzrə Beynəlxalq Konfrans keçirilib

**Azərbaycanda ilk dəfə təşkil olunan bu tədbirdə dünyanın 20-dən çox ölkəsindən 300-ə yaxın nümayəndə iştirak edib**

səh. 3

### Beynəlxalq konfransın qonaqları Fəxri Xiyabanı ziyarət edib

səh. 2

### ATU və Yeditepe Universiteti əməkdaşlıq memorandumu imzalayıb

səh. 4

### Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin təşkilatçılığı ilə beynəlxalq konqres təşkil olunub

səh. 5



### Səhiyyə Nazirliyində WFME-nin prezidenti ilə görüş keçirilib

Nazir Teymur Musayev: ATU-nun tədris proqramları beynəlxalq akkreditasiyadan keçməklə, yüksək status əldə edib

səh. 2

### Dünya Tibb Təhsili Federasiyasının prezidenti ATU rektorunun qonağı olub

səh. 2

### "Süd vəzi xərçəngi ilə mübarizə aylığı" davam edir

*Dosent Nigar Mehdiyeva: Bu tip bədxassəli şiş halları artsa da, onun müalicəsində çox böyük nailiyyətlər əldə olunub*

səh. 7



### Astronavtlar tələbələrimizin suallarını cavablandırıb

Prorektor Zülfüqar Musabəyov: Bu görüş həm tələbələrimiz, həm də professor-müəllim heyəti üçün unudulmaz bir xatirəyə çevriləcək

səh. 4

# Beynəlxalq konfransın qonaqları Fəxri Xiyabanı ziyarət edib



## Şəhidlər Xiyabanında qəhrəman Vətən övladlarının xatirəsi də yad olunub



**Oktyabrın 7-də Tibb Təhsili üzrə Beynəlxalq Konfransın (ICME) qonaqları Fəxri Xiyabanı ziyarət ediblər.**

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, Dünya Tibb Təhsili Federasiyasının prezidenti Rikardo Leon-Borkes, Pakistanın Riphah Beynəlxalq Universitetinin rektoru Hassan Muhammad Khan, Birləşmiş Ərəb Əmirliklərinin Ras Al Khaimah Tibb və Sağlamlıq Elmləri Universitetinin prezidenti, professor İsmayıl İbrahim Matalka, Pakistanın Riphah Beynəlxalq Universitetinin Tibb Kollecinin direktoru, professor Azhar Raşidin və başqaları əvvəlcə xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Konfransın fəxri qonaqları daha sonra Şəhidlər Xiyabanını ziyarət edərək, Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üstünə gül dəstələri düzüblər.

# Səhiyyə Nazirliyində WFME-nin prezidenti ilə görüş keçirilib

**Nazir Teymur Musayev: ATU-nun tədris proqramları beynəlxalq akkreditasiyadan keçməklə, yüksək status əldə edib**



**Səhiyyə naziri Teymur Musayev Dünya Tibb Təhsili Federasiyasının (World Federation of Medical Education, WFME) prezidenti Rikardo Leon-Borkeslə görüşüb. Görüşdə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də iştirak edib.**

Qonaqları salamlayan səhiyyə naziri WFME-nin missiyasının beynəlxalq müstəvidə ali elmi və etik standartların tətbiqi yolu ilə tibbi təhsilin keyfiyyətinin artırılması istiqamətində fəaliyyətini yüksək qiymətləndirib.

Nazir qeyd edib ki, Azərbaycanda səhiyyə sahəsinin və tibb elminin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. T.Musayev Azərbaycan Tibb Universiteti ilə Dünya Tibb Təhsili Federasiyası arasında uğurlu əməkdaşlığın davam etdiyini də diqqətə çatdırıb. Nazir ötən il ATU-nun tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçməklə, yüksək status əldə etdiyini və WFME-nin keyfiyyət nişanının qazandığını vurğulayıb. Onun sözlərinə görə, bu standartlar ATU diplomunun beynəlxalq tanınma coğrafiyasının genişləndirilməsində mühüm addımdır: "Eyni zamanda, bu standartlar Azərbaycan Tibb Universitetinin beynəlxalq tibbi təhsil məkanına daxil olmasına və yüksək səviyyəli mütəxəssislər hazırlamasına imkan yaradır".

Səmimi qəbula görə minnətdarlığını bildirən WFME prezidenti Azərbaycanda səhiyyə və tibb elminin inkişafı istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirib.

Federasiyasının Ümumdünya Səhiyyə Təşkilatı, Ümumdünya Tibb Assosiasiyası, UNESCO və BMT-nin müvafiq qurumları ilə qarşılıqlı əlaqədə olduğunu qeyd edən Rikardo Leon-Borkes WFME-nin Azərbaycan Səhiyyə Nazirliyi, o cümlədən ATU ilə əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb.

**Dünya Tibb Təhsili Federasiyasının (WFME) prezidenti, professor Rikardo Leon-Borkes Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin qonağı olub.**

# Dünya Tibb Təhsili Federasiyasının prezidenti ATU rektorunun qonağı olub



Görüş zamanı ilk dəfə olaraq Azərbaycanda keçirilən Tibb Təhsili üzrə Beynəlxalq Konfransla (ICME) əlaqədar fikir mübadiləsi aparılıb. WFME prezidenti bu mühüm toplantının Bakıda yüksək səviyyədə təşkilindən məmnunluğunu ifadə edib. ICME konfransının tibb təhsili sahəsində dünya miqyaslı mütəxəssislər arasında qarşılıqlı əməkdaşlıq üçün dayanıqlı platforma təmin etdiyini bildirən professor Rikardo Leon-Borkes, paytaxt Bakının gözəlliyinə dair fikirlərini də bölüşüb.

Rektor, professor Gəray Gəraybəyli tədbirə hazırlıq işləri, dəvət olunan qonaqlar, müzakirə ediləcək mövzuların aktuallığı və s. məsələlər barədə fikirlərini açıqlayıb. Professor G.Gəraybəyli, həmçinin universitetdə son illərdə aparılan islahatlar, tədris sistemində tətbiq edilən yeniliklər barədə məlumat verib. ATU-nun üç ixtisasının beynəlxalq akkreditasiyadan keçdiyini, bunun ölkəmizdə tibb təhsilinin keyfiyyətinin artırılması, eyni zamanda universitetimizin beynəlxalq nüfuzunun yüksəlməsi baxımından böyük önəm daşıdığını vurğulayıb.

Sonda qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Beynəlxalq tədbirə təlim kursları ilə start verilib

## Dünyada tanınmış alim və ekspertlər ATU-nun tədris korpuslarında çıxış edib

**Azərbaycan Tibb Universiteti və Pakistanın Riphah Beynəlxalq Universitetinin (RIU) birgə təşkilatçılığı ilə keçirilən Tibb Təhsili üzrə Beynəlxalq Konfrans (ICME) oktyabrın 7-də öz işinə başlayıb.**

Konfransın rəsmi açılışından öncə dünyanın müxtəlif ölkələrinin alim və ekspertlərinin iştirakı ilə ATU-nun tədris korpuslarında təlim kursları keçirilib.

ATU-nun Elmi hissəsinin tibb və elm üzrə koordinatoru Sevil Əsədova "Təbib" qəzetinə açıqlamasında bildirib ki, RIU tibb üzrə təlimlərə öz ölkəsində çoxdan başlayıb: "Artıq həmin layihə çərçivəsində dünyanın müxtəlif ölkələrində iki ildən bir tibb təhsilinin aktual problemlərinə həsr olunmuş tədbir keçirilir. Bu il isə Azərbaycan Tibb Universitetini seçiblər. Beynəlxalq konfransa Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Böyük Britaniya, ABŞ, Meksika və İran daxil olmaqla, ümumilikdə 20 ölkədən məruzəçilər gəlib".





O, tibb təhsilinin bir ixtisas və elm kimi bizdə təzə formalaşdığını söyləyərək, bu cür təlimlərin xüsusi önəmini vurğulayıb. Eyni zamanda tibbin tədrisində əsas bacarıqların aşılanmasının yeni müəllimlər, doktorantlar, o cümlədən tibb tələbələri üçün əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Oktyabrın 7-8-də keçirilən təlimlərdə Dünya Tibb Təhsili Federasiyasının prezidenti Rikardo Leon-Borkes, Riphah Beynəlxalq Universitetinin rektoru Hassan Muhammad Khan, Birləşmiş Ərəb Əmirliklərinin Ras Al Khaimah Tibb və Sağlamlıq Elmləri Universitetinin prezidenti, professor İsmail İbrahim Matalka, dr. Yaşar Hayat, eləcə də digər ölkələrin təmsilçiləri maraqlı məruzələrlə çıxış ediblər.

Təlimlərin əsas məqsədi tibb təhsili üzrə ekspertlər və pedaqoqları bir araya gətirməklə, bu sahədəki son yenilikləri və standartları müzakirə etmək, təcrübə mübadiləsi aparmaq və bu sahədə beynəlxalq platforma yaratmaq olub.

Qeyd edək ki, iki günlük təlimlərdə tədris zamanı süni intellektdən istifadə edilməsi, tədrisdə liderlik, elmi tədqiqatların necə aparılması, tələbələrin qiymətləndirilməsində yeniliklər və impakt faktorlu jurnallarda məqalənin qəbul prosesinə dair məruzələr dinlənilib. Bütün təlimlər ingilis dilində və interaktiv şəraitdə aparılıb. Təlimlərin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Bakıda VIII Tibb Təhsili üzrə Beynəlxalq Konfrans keçirilib

## Azərbaycanda ilk dəfə təşkil olunan bu tədbirdə dünyanın 20-dən çox ölkəsindən 300-ə yaxın nümayəndə iştirak edib













**7-10 oktyabr tarixlərində Bakıda VIII Tibb Təhsili üzrə Beynəlxalq Konfrans (İnternational Conference on Medical Education, ICME) keçirilib. Oktyabrın 9-da konfransın təntənəli açılış mərasimi olub. Ölkəmizdə ilk olan bu tədbir Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və Pakistan İslam Respublikasının Riphah Beynəlxalq Universitetinin birgə təşkilatçılığı ilə baş tutub. Dünyanın 20-dən çox ölkəsindən 300-ə yaxın xarici qonağı bir araya gətirən konqresdə tibb təhsili sahəsinin aparıcı mütəxəssisləri iştirak edib.**

Açılış mərasimində çıxış edən səhiyyə naziri Teymur Musayev qonaqları salamlayaraq, tədbirin Azərbaycan Respublikasında təşkilinə verdiyi dəstəyə görə Ümumdünya Tibb Təhsili Federasiyasına minnətdarlığını bildirib. Ölkəmizdə tibb təhsili məsələsinə toxunan nazir qeyd edib ki, Azərbaycan Tibb Universiteti səhiyyə müəssisələri üçün yüksək ixtisaslı həkim kadrlar yetişdirir, bununla da əhalinin sağlamlığının qorunmasına, tibb elminin tərəqqisinə mühüm töhfələr verir. Universitetin tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçməsi böyük əhəmiyyətə malikdir: "Hazırda ölkədə 56 ixtisas üzrə həkim hazırlığı aparılır. ATU ölkənin səhiyyə müəssisələri üçün yüksək bilikli kadrlar yetişdirir. Son illərdə tibb təhsilinin dünya standartlarına uyğunlaşdırılması üçün bir neçə yeni ixtisas üzrə qəbul həyata keçirilir".

Nazir T.Musayev Azərbaycan Respublikasında tibb təhsilinin təkmilləşdirilməsi və dünyanın nüfuzlu ali tibb məktəbləri ilə əlaqələrin genişləndirilməsi məqsədilə Prezident İlham Əliyevin 2015-ci il tarixli Sərəncamı ilə Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının yaradıldığını xatırladıb. Həmçinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun texniki tərəqqinin müasir səviyyəsində təhsil standartlarına uyğun ixtisasartırma və kadrların yenidən hazırlanmasını təmin edən diplomdan sonrakı təhsil müəssisəsi olduğunu bildirib.

Nazir son dövrlərdə bəşəriyyətin qarşılaşdığı ciddi səhiyyə sınaqlarının tibb təhsilində yeni yanaşmanı labüd etdiyini, bundan sonra da onlayn təhsilin genişlənəcəyini nəzərə alaraq, xüsusən də davamlı tibbi təhsil sahəsində qlobal vahid akkreditasiya meyarlarının müəyyənləşdirilməsinə ehtiyac olduğunu qeyd edib. Tədbirdə tibb təhsilinin gələcək istiqamətləri ilə bağlı aktual məsələlərə toxunulacağına inandığını bildirən T.Musayev konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev konfrans iştirakçılarını salamlayaraq, tibb təhsilinin ölkənin strateji məsələlərinin həllində və əhalinin sağlamlığının qorunmasında mühüm əhəmiyyətindən danışıb: "Müşahidələr göstərir ki, ölkədə bütün zamanlarda yüksək nəticə göstərən məzunlar gələcəkdə ali təhsil almaq üçün məhz tibb sahəsini seçirlər ki, bu da yüksəkixtisaslı həkimlərin formalaşması ilə nəticələnir".

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tibb təhsili sahəsində belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin və məhz "Heydər Əliyev İli"nə təsadüf etməsinin qürurverici hadisə olduğunu vurğulayıb. O, Bakı konqresinin innovativ ideyalar, qabaqcıl təcrübələr və tibb təhsili sahəsində ən son yeniliklərin mübadiləsi üçün platforma rolunu oynayacağından əmin olduğunu bildirib: "Bu, tibb təhsilinin davamlı təkmilləşdirilməsi və inkişafı mədəniyyətini təşviq etməklə, müəllimlər və tələbələr qismində rollarımız haqqında düşünmək üçün bir fürsətdir. Effektiv tədris metodologiyaları, texnoloji inteqrasiya və inkişaf edən tibb təhsili mənzərəsi haqqında anlayışımızı genişləndirmək üçün sizi konfrans çərçivəsində keçiriləcək sessiyalar, seminarlar və müzakirələrdə aktiv iştirak etməyə dəvət edirik".

Rektor G.Gəraybəyli konfrans çərçivəsində paytaxtımızda ilk dəfə olan qonaqları özünəməxsus ənənələri, müasirlik və müstəsna qonaqpərvərliyi ilə fərqlənən, zəngin tarixə və müxtəlif mədəniyyətlərin vəhdətinə malik olan Bakı ilə yaxından tanışlığa da çağırıb.

Dünya Tibb Təhsili Federasiyasının (World Federation of Medical Education, WFME) prezidenti, professor Rikardo Leon-Borkes Bakıda ilk dəfə keçirilən ICME konfransının tibb təhsili sahəsində dünya şöhrətli mütəxəssislər arasında qarşılıqlı əməkdaşlıq üçün dayanıqlı platforma təmin etmək məqsədi güddüyünü qeyd edib: "Azərbaycan tibb təhsilinin inkişaf etdirilməsi istiqamətində beynəlxalq standartlara uyğun hərəkət edir. Azərbaycanın bu sahədəki səyləri və yatırım etdiyi sərmayələr vəziyyəti doğru istiqamətə aparır: Belə ki, Azərbaycanda tibb təhsili region üçün yaxşı formada qurulub. Ümumilikdə, tibb təhsilinin inkişafı üçün Azərbaycana hər zaman dəstək olmağa hazırıq".

Birləşmiş Ərəb Əmirliklərinin Ras Al-Khaimah Tibb və Sağlamlıq Elmləri Universitetinin prezidenti, professor İsmail İbrahim Matalka tədbirin tibb ictimaiyyətinin tibb təhsili sahəsindəki yeniliklərlə bağlı məlumatlandırılması və təcrübə mübadiləsinin aparılması baxımından önəmli olduğunu bildirib. Qonaq bu toplantının bilik və təcrübə mübadiləsi aparmaq, dünyanın fərqli ölkələrinin təmsilçiləri ilə əməkdaşlıqlar qurmaq üçün əla imkan yaratdığını vurğulayıb.

Sonra Riphah Beynəlxalq Universitetinin kansleri Hasan Muhammed Xan, Birləşmiş Ərəb Əmirliklərinin Gulf Universitetinin kansleri, professor Hossam Hamdini, Tibb Təhsili üzrə Beynəlxalq Konfransın prezidenti, professor Azhar Raşid çıxış edərək konfransın əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, konfransda tibb təhsilinin bütün aspektlərini əhatə edən mövzuların müzakirəsi iştirakçılar üçün faydalı olacaq.

Daha sonra tanınmış tədqiqatçı Fuad Axundov "Bakının neft və qeyri-neft salnaməsi" mövzusunda təqdimat keçirib.

Açılış mərasimi Azərbaycan Respublikasının əməkdar artisti Səbinə Ərəblinin "Qarabağ" şikəstəsini ifa etməsi ilə başa çatıb.

Təntənəli mərasimin ardınca konfrans öz işini müxtəlif mövzular üzrə simpoziumlarla davam etdirib. İki gün ərzində simulyasiya əsaslı təlim, səriştələrin öyrədilməsi, koqnitiv bacarıqların aşılanması, kompüter texnologiyaları və süni intellektin tətbiqi kimi günümüzün aktual məsələləri müzakirəyə çıxarılıb. Tibb təhsili sahəsində dünyada tanınmış 30-dan çox ekspertin ən aktual mövzularda məruzələri dinlənilib, "Ekspertlər nə deyir?" sessiyalarında tibb təhsili və təliminə dair ən qabaqcıl yanaşmalar və təcrübələr təqdim olunub.

Qeyd edək ki, indiyədək ICME konfransı iki ildən bir olmaqla, Abu Dabi, Mavriki, İstanbul, Ottava və İslamabadda keçirilib. Bundan öncəki konfrans 2021-ci ildə İndoneziya İslam Universiteti ilə birgə virtual formatda baş tutub.

# Beynəlxalq konfrans öz işini uğurla başa çatdırıb

**VIII Tibb Təhsili üzrə Beynəlxalq Konfrans (International Conference on Medical Education, ICME) oktyabrın 10-da öz işini "Fairmont Baku" hotelində davam etdirib.**

Konfrans son iş gününü hotelin Nizami Gəncəvi, Qara Qarayev, Fikrət Əmirov, Hüseyn Cavid, Üzeyir Hacıbəyov və İmadəddin Nəsimi adına zallarında təşkil olunan simpozium, şifahi təqdimat, poster təqdimatı, sessiya və seminarlarla başa vurub.

Tibb təhsilinin aktual problemlərinə həsr olunan konfransda "Kurikulum dizaynında yeniliklər", "Tibb təhsilində qiymətləndirmə", "Qlobal səhiyyə və tibb təhsili", "Tibb təhsilində sağlamlıq və dayanıqlıq" mövzuları ətrafında maraqlı məruzələr dinlənilib.

Tanınmış xarici mütəxəssislərdən İsmail İbrahim Matalka, Hossam Hamdini, Mustahsen Rahman, Ulfat Başir Raja, Mahviş Aruj, Rehan Ahmed, Mona Hamoud Al Şeyx, Azhar Raşid, Jilda Çeişvili, Raul Baraç, Don Robinson, Nadim Akbar, yerli mütəxəssislərdən isə Nabil Seyidov, Rəhimə Qabulova, Rövşən Xəlilzadə, Şəfa Bədullayeva və başqaları aktual məsələlərə toxunublar.

Məruzəçilər, əsasən, texniki tərəqqinin müasir səviyyəsində təhsil standartlarına uyğun ixtisasartırma və kadrların yenidən hazırlanmasına, tibb təhsilinin təkmilləşdirilməsinə, dünyanın nüfuzlu ali tibb məktəbləri ilə mübadilələrin aparılmasına, onlayn təhsilin genişləndirilməsi istiqamətində zəruri addımların atılmasına, davamlı tibbi təhsil sahəsində qlobal vahid akkreditasiya meyarlarının müəyyənləşdirilməsinə ehtiyac olduğunu vurğulayıblar.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, eləcə də Nüşabə Pənahova, Afaq Axundovanın hazırladığı poster-təqdimatlar, Nilufər Məmmədova, Mədinə Hacıyeva, Elyanə Təhməzovanın şifahi təqdimatları da maraqla qarşılanıb.

"Ekspertlər nə deyir?" sessiyalarında isə tibb təhsili və təliminə dair ən müasir yeniliklər, təcrübələr təqdim olunub.



Günün sonunda VIII Tibb Təhsili üzrə Beynəlxalq Konfransın bağlanış mərasimi keçirilib.

Beləliklə də Azərbaycan Tibb Universitetinin əsas təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə keçirilən bu mötəbər, dünya səviyyəli tədbir uğurla başa çatıb.

## ATU və Yeditepe Universiteti əməkdaşlıq memorandumu imzalayıb



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli qardaş Türkiyənin Yeditepe Universitetinin Tibb fakültəsinin dekanı, professor Sina Ercanı qəbul edib.**

Əvvəlcə ölkəmizdə keçirilmiş VIII Tibb Təhsili üzrə Beynəlxalq Konfransa qatıldığı üçün qonağa təşəkkürünü bildirən rektor, Avropa Akkreditasiya Təşkilatı tərəfindən konfransın 24,5 balla akkreditə olunmasını təşkilatçıların fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirib.

Professor G.Gəraybəyli əsas diqqəti Türkiyə universitetləri ilə olan əməkdaşlığın səviyyəsinə yönələrək qeyd edib ki, 30-dan çox tibb fakültəsi ilə əlaqələrimiz var: "Bu əlaqələr təkcə sənəd üzərində deyil, praktiki fəaliyyətdə təsdiqini tapan qardaşlıq münasibətləridir. Dəfələrlə vurğulamışam ki, türkiyəli kolleqalarımız ən çətin məqamlarda hər zaman bizə dəstək olublar. COVID pandemiyası zamanı Ankara və Qazi universitetləri bizimlə onlayn mühazirələr təşkil etmişdi. Universitetimizdə yeni ixtisaslar açılanda qarşılaşdığımız problemlərin həllində də təcrübəli mütəxəssislər öz köməklərini əsirgəmədilər. Hazırda isə Tibb bacılığı ixtisası üzrə təhsil alan bir neçə tələbəmiz praktiki bacarıqlarını təkmilləşdirmək üçün Türkiyədədir".

Bu müstəvidə istər müəllimlər, istərsə də tələbələr arasında olan görüşlərin vacibliyini söyləyən rektorun sözlərinə görə, indi daha çox elmi əlaqələrin möhkəmləndirilməsinə ehtiyac var: "Belə ki, universitetin mərkəzi laboratoriyasında islahatlar gedir. Biz onu elmi araşdırma mərkəzinə çevirməyi düşünürük. Əsas məqsəd beynəlxalq əlaqələri elmi sahəyə yönəltməkdir. İndiyədək kifayət qədər birgə elmi konfranslar, seminarlar keçirmişik. Bundan sonra birgə elmi məqalələrin yazılması, birgə tədqiqatların aparılması xüsusilə önəmlidir. Birgə tədqiqatların bir hissəsi Türkiyədə, bir hissəsi isə Azərbaycanda aparıla bilər".

Professor Sina Ercan səmimi qəbul üçün təşəkkürünü bildirərək, bu əlaqələrin Yeditepe Universiteti üçün də əhəmiyyətli olduğunu deyib.

Görüş zamanı ikili diplom və digər məsələlərə dair fikir mübadiləsi aparılıb. Eyni zamanda gələcək planlarla bağlı təkliflər səsləndirilib.

Görüşün sonunda Azərbaycan Tibb Universiteti ilə Yeditepe Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumda iki universitet arasında tələbə-müəllim mübadiləsi, birgə layihələrin icrası, ikili diplom məsələsində əməkdaşlıq və digər önəmli məqamlar nəzərdə tutulub.

## Naxçıvan Səhiyyə Nazirliyinin rəhbər şəxsləri rezidentlərimizlə görüşüb

### Qonaqlar Tədris Cərrahiyyə Klinikası ilə də yaxından tanış olublar





**Sentyabrın 29-da ATU-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin rəhbər şəxslərinin rezidenturada təhsil alan həkim-rezidentlərlə və magistrlərlə görüşü keçirilib. Görüş rezidenturanı və magistraturanı bitirən həkim-mütəxəssislərin və magistrlərin təyinatı və iş yerlərinə göndərilməsi mövzusuna həsr olunub.**

Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsini icra edən Samiq Sadıxov, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsinin müdiri Təranə Əhmədova və ATU-nun Rezidentura və magistratura şöbəsinin məsul işçiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rektor Gəray Gəraybəyli görüşün əsas məqsədi ilə rezidentləri tanış edib və bu ilin məzun rezidentlərinə uğurlar arzulayıb.

Daha sonra Samiq Sadıxov çıxış edərək hazırda Muxtar Respublikada səhiyyə sisteminin vəziyyəti və əsas vakant yerlər haqqında, eləcə də orada çalışacaq həkimlərə yaradılan şərait və digər aspektlərlə bağlı rezident və magistrlərə geniş məlumat verib. Eyni zamanda Muxtar Respublikada olan klinikalara aid video-çarx nümayiş etdirilib. Görüşdə rezident və magistrləri maraqlandıran suallar ətraflı cavablandırılıb.



Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsini icra edən Samiq Sadıxov Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında da olub.

Klinikanın direktoru Cavid Paşayev qonağa müəssisənin fəaliyyət istiqamətləri haqqında məlumat verib, onu burada yaradılmış şərait və əhaliyə göstərilən tibbi xidmətlərlə tanış edib. C.Paşayev klinikada ən yeni avadanlıqların mövcud olduğunu, müxtəlif sahələr üzrə laboratoriyaların fəaliyyət göstərdiyini, müasir müalicə mexanizmlərinin tətbiq olunduğunu, tələbə və rezidentlərin təcrübəsi üçün hərtərəfli şərait yaradıldığını diqqətə çatdırıb.

Klinikanın fəaliyyətindən məmnun qaldığını bildirən S.Sadıxov görüş iştirakçılarını muxtar respublikanın səhiyyə müəssisələri haqqında ümumi məlumatla tanış edib.

Görüşdə ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov və Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin köməkçisi Məhərrəm Talıbov iştirak edib.



## Astronavtlar tələbələrimizin suallarını cavablandırıb

### Prorektor Zülfüqar Musabəyov: Bu görüş həm tələbələrimiz, həm də professor-müəllim heyəti üçün unudulmaz bir xatirəyə çevriləcək

**Azərbaycanın Kosmik Agentliyinin ("Azərkosmos") və Beynəlxalq Astronavtika Federasiyasının tərəfdaşlığı ilə Bakıda keçirilən 74-cü Bakı Beynəlxalq Astronavtika Konqresi çərçivəsində ATU-da tələbələrin astronavtlarla görüşü olub.**

Tələbələr astronavtları telefonlarının işıqlarını yandırıb ulduzlu fəza görüntüsü yaratmaqla qarşılayıblar.

Tədbiri giriş sözü ilə universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov açıb. O, qonaqları öz adından və universitetin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayaraq ən xoş arzularını çatdırıb. Azərbaycanın son illərdə çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini bildirən prorektor, bu möhtəşəm beynəlxalq konqresin ölkəmizdə keçirilməsinin də qürurverici bir hadisə olduğunu deyib: "Qeyd etmək istərdim ki, Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsi kosmik sənayeyə verdiyimiz önəmin nəticəsidir. Hələ 50 il əvvəl, 1973-cü ildə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə Bakıda 24-cü Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi böyük tarixi hadisə idi. Hazırda ölkəmizdə keçirilən 74-cü konqresin "Heydər Əliyev İli"nə təsadüf etməsi isə xüsusilə əlamətdardır. Tədbirdə 30 müxtəlif ölkədən 1500-dən çox iştirakçının toplanması Azərbaycan Respublikasının inkişafının və dünya arenasında qabaqcıl yerinin bariz nümunəsidir".

Z.Musabəyov konqres çərçivəsində Bakıya gəlmiş dünyanın tanınmış astronavtları Anthony Antonelli, Alper Gezeravci, Yulie Payette və Anna Kikinanın universitetimizin qonağı olmalarından məmnunluğunu dilə gətirib. Eyni zamanda görüş üçün bizim universiteti seçdiklərinə görə onların hər birinə təşəkkürünü bildirib. Bu görüşün həm tələbələrimiz, həm də professor-müəllim heyəti üçün unudulmaz bir xatirəyə çevriləcəyini söyləyən prorektor, astronavtlarla görüş imkanı yaratdığına görə Azərbaycanın Kosmik Agentliyinə və həmin qurumun təmsilçisi İmran Muxtarova da xüsusi minnətdarlığını çatdırıb. Çıxışının sonunda tələbələri "Kosmos və səhiyyə" mövzusunda sual-cavab sessiyasında fəal olmağa çağırıb.

"Azərkosmos"un təhsil və tanıtım üzrə meneceri İmran Muxtarov çıxış edərək 50 ildən sonra Beynəlxalq Astronavtika Konqresinin yenidən Bakıda keçirilməsinin sevindirici hal olduğunu vurğulayıb. Diqqəti bir neçə fakta yönəldərək, 3670 elmi məqalənin dünyanın 89 ölkəsində təqdim edildiyini söyləyib. O cümlədən 14 universitetin təmsilçiliyi ilə tələbələr tərəfindən təqdim olunan 214 elmi məqaləyə görə Azərbaycanın dünyada ilk beşlikdə yer almasını yüksək qiymətləndirib: "ABŞ, İtaliya, Hindistan və Çindən sonra Azərbaycanın 5-ci yeri tutması çox böyük nailiyyətdir. Böyük bir konqresin bir parçası olan beynəlxalq astronavtlar proqramı da çox önəmlidir. Konqres çərçivəsində keçirilən bu görüşlər 5 universitetdə, 4 məktəbdə və digər inkluziv, eləcə də idman, sosial uşaq və gənclər mərkəzlərində olmaqla toplam 12 görüşdən ibarətdir. Bu gün Azərbaycan Tibb Universitetindəyik. Professor Gəray Gəraybəyli başda olmaqla universitet rəhbərliyinə təşəkkür edirik. Paraolimiadaçılarımız, eyni zamanda inkluziv uşaqlarımız, məktəblilərimiz, tələbələrimiz, professor-müəllim heyəti üçün nəzərdə tutulan bu proqrama 3000-ə yaxın şəxs qatılıb. Azərbaycanın Kosmik Agentliyi uzun illərdir ki, tələbələrlə, gənc alimlərlə və bu sahənin mütəxəssisi olan insanlarla aktiv fəaliyyət aparır. İndi əsas məqsədlərimizdən biri təkcə peyklərin operatorluğunu həyata keçirmək deyil, ölkədə kosmik ekosistemin inkişafına, tələbələrimizin, gənc alimlərimizin, eləcə də digər kateqoriyadan olan cəmiyyət mənsublarının kosmos elmi haqqında maarifləndirilməsinə dəstək göstərməkdir".

Daha sonra astronavtlar kosmosa uçmaq arzularının necə yaranmasından danışıblar.

**Yulie Payette:** "İlk növbədə televizorda kosmosla bağlı verilişlərə baxanda çox ruhlandım. Amma ingilis dilini bilmirdim. O vaxt qadınlar kosmosa uçmurdular. Mən pilot da deyildim. Bütün bu çətinliklərə rəğmən, sonda kosmosa uçmaq arzumu yerinə yetirdim. Siz də buna qadirsiz. Mümkünsüz heç nə yoxdur".

**Anthony Antonelli:** "Məni isə kosmosa elmə olan sonsuz marağım həvəsləndirdi. Kəşf edilməmiş şeylər o qədər çoxdur ki, istədim ki, bu yolun bir hissəsi olum".

**Anna Kikina:** "27 yaşıma qədər sevdiyim işlərlə məşğul olurdum. Amma özümü tam tapmamışdım. 27 yaşımda özümü təsdiqləmək üçün kosmosu seçdim".

**Alper Gezeravci:** "14 yaşımdan əsgər məktəbinə getdim. Sonra əsgərlik həyatı başladı. 8 il hava yollarında kapitan-pilot olaraq çalışdım. Uçmaq xəyalı gerçəkləşmiş bir insan idim. Lakin həyatımın heç bir dönəmində kosmos mənim xəyalım olmamışdı. Bir dəfə əsgəri uçuşdan gəldikdən sonra Cümhurbaşkanı tərəfindən bir türk vətəndaşının Cümhuriyyətin 100 ilində kosmosa göndəriləcəyi xəbərini eşitdim. Ölkəm adına sevindim. Məni astronavt olmağa kosmasda xalqımızı təmsil etmək istəyi ruhlandırdı".

Qarşılaşdıqları çətinliklərdən və uçuş təcrübələrindən də söhbət açan astronavtlar tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

Görüşün sonunda asronavtlara Azərbaycan Tibb Universitetinin xatirə hədiyyələri təqdim olunub. Astronavtlar da tələbələrə imzalı şəkillərini təqdim ediblər və görüş fotosessiyası ilə başa çatıb.

**Arif MƏMMƏDLİ**

**Oktyabrın 12-də Heydər Əliyev Mərkəzində Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin təşkilatçılığı Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq konqres öz işinə başlayıb. Konqresi Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, cəmiyyətin sədri, professor Çingiz Rəhimov açıb.**

# 30 ölkədən ağız və üz-çənə cərrahları Bakıda toplaşıb

**Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin təşkilatçılığı ilə konqres keçirilib**





O, konqresə məruzə üçün təşrif gətirənlərin dünyanın tanınmış və təcrübəli mütəxəssisləri olduğunu bildirib: "Bu tədbir onları dinləmək, canlı münasibət qurmaq və onlardan faydalı məsləhətlər almaq üçün imkan yaradır. Qonaqlarımızın bəziləri ilk dəfədir Azərbaycana gəlib. Biz çalışdıq ki, konqresin keçirilməsi üçün ölkəmizin ən yaxşı məkanını seçək. Hazırda biz əfsanəvi şəxsiyyətin adını daşıyan Heydər Əliyev Mərkəzində toplaşmışıq. Bu möhtəşəm tikili dünyanın memarlıq inciləri xəzinəsinə daxili edilib".

Professor 3 gün ərzində müxtəlif istiqamətlərdə məruzələrin dinləniləcəyini bildirib: "Tədbirdə təkcə ağız və üz-çənə cərrahiyyəsi deyil, eyni zamanda baş-boyun, plastik rekonstruktiv cərrahiyyələr, stomatologiya, diş implantologiyası, onkoloji problemlər və s. müzakirə olunacaq".

Səhiyyə nazirinin müavini, professor Nadir Zeynalov öz çıxışında tədbirin Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunduğu bir dövrə təsadüf etdiyini, 2023-cü ilin ölkəmiz üçün çox əhəmiyyətli bir il olduğunu bildirib: "Bu ilin əhəmiyyəti odur ki, 30 ildən artıq davam edən Qarabağ münaqişəsinin ədalətli həlli təmin olunub. İşğaldan azad olunmuş ərazilərdə sülh, reinteqrasiya, əməkdaşlıqdan danışa bilərik. Hesab edirəm ki, bu bizim regionumuz üçün əhəmiyyətli olacaq, dayanıqlı və uğurlu inkişaf üçün zəmin yaradacaq".

Konqresin əhəmiyyətini vurğulayan nazir müavini, qonaqlara Bakı və regionlarla yaxından tanış olmağı da tövsiyə edib.

Qeyd edək ki, 30 ölkədən 600-ə yaxın nümayəndənin iştirak etdiyi tədbirin açılış mərasimindən sonra zəngin konsert proqramı təqdim olunub.

# "Ağciyər sağlamlığı" mövzusunda elmi konfrans keçirilib

**Professor Rauf Bəylərov: Bronx-ağciyər patologiyalarının sayı 800-dən çoxdur**

**Oktyabrın 13-də "Radisson Hotel"də "Ağciyər sağlamlığı" mövzusunda beynəlxalq konfransın açılış mərasimi olub. Azərbaycan Tibb Universiteti və Türkiyənin Ağciyər Sağlığı və Yoğun Bakım Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutan konfransda ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov çıxış edərək ölkəmizin bütün sahələrində olduğu kimi, təhsil və səhiyyə sahəsində də dinamik inkişafının müşahidə edildiyini söyləyib.**



O, ölkə başçısının səhiyyə sahəsində apardığı islahatlar nəticəsində vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin xeyli yüksəldiyini diqqətə çatdırıb. Bildirib ki, son illərdə həm paytaxtda, həm də bölgələrdə yeni tibb müəssisələrinin tikilməsi və müasir tipli avadanlıqlarla təchiz edilməsi bu yüksəlişin bariz nümunəsidir.

Professor R.Bəylərov pulmanologiyanın aktual problemlərinə həsr olunmuş bu konfransın da iki qardaş ölkənin mütəxəssisləri tərəfindən keçirilməsindən məmnunluğunu ifadə edib. Onu da vurğulayıb ki, ümumilikdə bronx-ağciyər patologiyalarının sayı 800-dən çoxdur, bunların təxminən 200-ə qədəri səpələnmiş xəstəliklərdir.

Bronx-ağciyər patologiyalarının aktual problemlərinə dair maraqlı məruzələrin dinləniləcəyinə inandığını söyləyən prorektor, çıxışının sonunda tədbir iştirakçılarına universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və konfransın işinə uğurlar arzulayıb.

Konfransın sədr müavini, Ankara Universitetinin Tibb fakültəsinin Döş qəfəsi xəstəlikləri kafedrasının professoru Akın Kaya və Bakırçay Universitetinin Tibb fakültəsinin Döş qəfəsi xəstəlikləri kafedrasının professoru Ahmet Emin Erbaycu da açılış mərasimində çıxış ediblər. Qardaş ölkədə olmaqdan məmnunluqlarını dilə gətirən professorlar hər iki ölkə üçün önəmli olan bu cür konfransların gələcəkdə də davamlı şəkildə, sıx əməkdaşlıq çərçivəsində keçirilməsinin vacibliyindən danışıblar.

ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov pulmanologiya sahəsində qardaş Türkiyə ilə sıx əlaqələrimizin olmasına xüsusi diqqət çəkib. Türkiyədən 70-ə yaxın qonağın, həmçinin onların arasında dünya səviyyəsində tanınan mütəxəssislərin, eləcə də ağciyər patologiyaları ilə məşğul olan azərbaycanlı həkimlərin qatıldığı konfransın iki qardaş ölkə mütəxəssisləri arasında fikir mübadiləsinin aparılması baxımından xüsusi əhəmiyyət daşıdığını deyib.

Konfrans öz işini iki gün ərzində bölmə iclasları ilə davam etdirib. "Astmanın müalicəsi", "Tənəffüs yollarının bədxassəli obstruksiyasının müalicəsi", "YİKT görüntüləri (düyünlü, xətti, mozaik)", "Dərmanlara davamlı ağciyər vərəmi", "Ağciyər emboliyası" mövzularında və bronx-ağciyər patologiyalarının diaqnostikasında böyük əhəmiyyətə malik olan radioloji müayinələr haqqında məruzələr dinlənilib.

# Sağlam qidalanma pəhriz deyil, həyat tərzidir

**Birləşmiş Millətlər Təşkilatı 1979-cu ildə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) konfransında Ümumdünya Ərzaq Gününü təsis edib və sonradan həmin gün "Sağlam Qidalanma Günü" kimi qeyd olunub.**



ATU-nun Qidalanma və tibbi ekologiya kafedrasının dosenti Atiqə Abdullayeva bildirir ki, "Ümumdünya Sağlam Qidalanma Günü"nün məqsədi düzgün qidalanma ilə bağlı ictimaiyyəti məlumatlandırmaq və maarifləndirməkdir. Eyni zamanda bu gün hər kəsi öz sağlamlığı və pəhriz haqqında düşünməyə təşviq etmək üçün yaradılıb. Qidalanma sağlam həyat tərzinin ən vacib aspektlərindən biridir. İnsan orqanizmində bütün orqan və sistemlərin normal fəaliyyəti qida və onun tərkibindəki komponentlərdən asılı olaraq tənzimlənir.

Tarix boyu insanların qidalanmaya xüsusi əhəmiyyət verdiyini söyləyən mütəxəssisin sözlərinə görə, qida yalnız insanın mövcudluğunu deyil, həm də onun genetik yaddaşını formalaşdırır. Son onillikdə texnologiyanın inkişafı nəticəsində əhalinin həyat tərzində baş verən əhəmiyyətli dəyişikliklər insanın qidalanmasında da dəyişikliklərə səbəb olub. Təəssüf ki, bu dəyişikliklərin hamısı müsbət deyil. Yəni yetkin əhalinin əksəriyyətinin qidalanmasında çox miqdarda heyvan yağı və sadə karbohidratların (şəkərlər) yer alması səbəbindən sağlam qidalanma prinsipləri pozulub.

Müasir insanın son dərəcə balanssız qidalanmasına diqqət çəkən müsahibimiz, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına istinad edərək 2 milyarddan çox böyük insanın və təxminən 380 milyon uşaq və yeniyetmənin artıq çəkidən və ya piylənmədən əziyyət çəkdiyini deyir: "Bütün dünyada insanlar qidalanma zamanı nişastalı qidalara (çörək, kartof) 10%, şəkərə 30-35% üstünlük verir, lakin bioloji dəyərli qidaları (meyvə-tərəvəz, süd məhsulları) lazımi qədər qəbul etmirlər. Ətlə qidalanma 25%, südlə qidalanma 30%, tərəvəz və meyvələrlə qidalanma isə 45-50% azalıb. Qidalanmada kifayət qədər bitki və heyvan zülalları, sağlam pəhriz lifi, mikroelementlər (vitaminlər və minerallar) yoxdur, lakin yağlar, xüsusən də heyvan yağları, xolesterin və saxaroza həddindən artıqdır. Bir çox insanlar süfrə duzundan çox istifadə edirlər: qadınlarda gündə 5 qram duz norma hesab olunsa da, bu səviyyə 2 dəfə, kişilərdə isə daha çox normanı aşır".

Dosent A.Abdullayeva sağlam qidalanmanı pəhriz deyil, həyat tərzi kimi səciyyələndirərək, düzgün qidalanmağa alışmış insanın hansısa sağlamlıq probleminin öhdəsindən daha asan gələ bildiyini diqqətə çatdırır.

Gün ərzində yeyilən qida qəbul saatlarına görə düzgün bölüşdürülməli, qidalanma rejiminə əməl edilməlidir. Gündə 3-5 dəfə, lakin az miqdarda qida qəbul etmək də düzgün qidalanmanın əsas qaydalarından biridir. Qidanı gün ərzində daim eyni saatlarda qəbul etmək daha məqsədəuyğundur. Qidalanmada qida qəbulu arasındakı fasilələr 4-5 saatdan çox olmamalıdır. Son qida qəbulu yatmazdan 2,5-3 saat əvvəl olmalıdır.

Həm də yeməklər müxtəlif olmalı, yağlı, qızardılmış, ədviyyatlı və turş qidaların miqdarı məhdudlaşdırılmalıdır. Həmçinin duz və şəkər qəbulunu azaltmaq, bitki mənşəli yağlara üstünlük vermək məsləhətdir: "Səhər yeməyi mütləqdir. Tam və müxtəlif olmalıdır, qəhvə və pendirli sendviçlər kifayət deyil. Ən yaxşı seçim zövqə uyğun yulaf və ya qarabaşaq yarmasıdır. Yumşaq qaynadılmış yumurta yemək və qəhvə əvəzinə bir stəkan təzə dəmlənmiş çay (yaşıl və şəkərsiz) içmək yaxşıdır. İş, məktəb üçün buğda çörəyi, müsli, quru meyvə və qoz-fındıq qarışığı, alma və ya bir parça pendir götürmək faydalıdır. Bütün bunlar nahara qədər yaxşı əhval-ruhiyyədə qalmağınıza kömək edər".

Duru yeməklər həzmi rahatlayr və mədənin həddən artıq yüklənməsinin qarşısını alır. Qazlı sular istisna edilməklə, maye qəbuluna üstünlük verilməsi də sağlam qidalanmanın şərtlərindəndir. Çox miqdarda şirniyyat, xüsusilə də kremli və ya çox şokoladlı tortlar, xəmirli yeməklər tövsiyə olunmur.

Məşhur inancın əksinə olaraq, deserti yeməkdən əvvəl qəbul etməyi məsləhət görən mütəxəssis qeyd edir ki, bu, iştahanı azaltmaqla həddindən artıq yeməyin qarşısını alır. Amma nahar və ya şam yeməyinin sonunda yeyilən meyvələrin həzm olunması çox uzun çəkir və bütün faydalı maddələrini itirmiş olur. Meyvə və tərəvəzlərdə orqanizm üçün çox lazım olan vitaminlər var. Tərkibində pektin və lif olan tərəvəzlər dolğunluq hissi yaradır, bağırsaqların işini tənzimləyir, toksinləri orqanizmdən xaric edir. Bunlara kələm, balqabaq, turp, pomidor, xiyar və yarpaqlı göyərti daxildir. Ancaq bütün gün ərzində yalnız meyvə və salat qəbulu məsləhət deyil, çünki bu, həzm prosesi ilə bağlı pozğunluğa və digər problemlərə gətirib çıxara bilər.

Mütəxəssislər düzgün qidalanmağı, sürətli hazırlanan yemək növlərindən imtina etməyi tövsiyə edirlər. Bütün bunlar həyatınızı yaxşılığa doğru əhəmiyyətli dərəcədə dəyişəcək. Ən əsası isə hər şeydə normaya riayət etməkdir. Necə deyərlər, gözəllik və sağlamlıq öz əlinizdədir.

# Dünyaşöhrətli latviyalı həkimlə görüş keçirilib

**Oktyabrın 12-də Azərbaycan Tibb Universitetinin professoru Rafiq Təhməzovun təşəbbüsü ilə ATU-nun qonağı olan Latviya Universitetinin tibb elmləri doktoru, osteopat həkim Arturas Yaşinskas ilə görüş keçirilib.**



Onu tədbir iştirakçılarına təqdim edən R.Təhməzov bildirib ki, bu görüş ATU ilə Latviya Universiteti arasında bağlanmış müqaviləyə əsasən keçirilir: "Hörmətli qonağımız dünyada osteopatiya sahəsində tanınmış alim olmaqla, həm də bu sahə üzrə Latviya Universitetində rezidentlərin rəhbəridir".

Bundan sonra A.Yaşinskas universitetimizin professor-müəllimləri, eləcə də tələbə-rezidentləri üçün "Osteopatiyanın əsasları" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi bildirib ki, osteopatiya ağrısız və dərmansız müalicə üsuludur. Bu diaqnostika üsulu özündə bir çox istiqamətləri, eyni zamanda manual terapiyanı birləşdirən geniş bir sahəni əhatə edir. Osteopat-həkim - orqanizmin fəaliyyətində bir-birinə təsirini ifadə edən əzələ fassiyaları, oynaq, sümük və daxili orqanlarda cüzi dəyişmələri hiss etmək və yalnız əllərinin toxunulması ilə uğurlu müalicə aparmaq imkanına malik mütəxəssisdir. Bu proses osteopat və pasiyent arasında dərin ahəngdarlıq şəraitində baş verir.

Məruzə ətrafında çıxış edən ATU-nun professorları Məhbubə Vəliyeva, Əhməd Kazımov, Hüseyn Abıyev və başqaları vurğulayıb ki, insanlar qədim zamanlardan bəri müxtəlif müalicə üsulları, dərman preparatları, həmçinin türkəçarələrdən istifadə ediblər. Musiqinin müalicəvi təsiri isə insanlara lap əvvəllərdən məlumdur. Musiqi ilə müalicə metodu eramızdan əvvəl Çində tətbiq olunub. Hazırda musiqi terapiyasından dünyanın əksər ölkələrində istifadə edilir.

Görüşdə vurğulanıb ki, bu üsulla müalicə geniş yayılsa da, musiqi ilə diaqnostika üsulu az adama bəllidir. Bu metod ilk dəfə azərbaycanlı alim Rafiq Təhməzov tərəfindən öyrənilib. O, 1994-cü ildə Çində olarkən orada U-SİN nəzəriyyəsi ilə tanış olub və bu nəzəriyyə əsasında muğam diaqnostikası işləyib hazırlayıb. Belə ki, həmin metoda uyğun olaraq ayrı-ayrı səslərə, muğam hissələrinə qulaq asmaqla hansı orqanın xəstə olduğunu müəyyən etmək mümkündür.

Daha sonra tədbirdə iştirak edən əməkdar artist Elşən Mənsurov kamançada eksperiment olaraq "Bayatı-Şiraz", "Bayatı-Qacar", "Bayatı-türk", "Uşşaq" və "Çahargah" muğamlarını səsləndirib.

Bildirilib ki, diaqnoz qoyularkən xəstə həmin muğamları dinləyir, hansı xoşuna gəlirsə, ona əsasən xəstəliyini təyin etmək olur. Beləliklə, dünyada ilk dəfə U-SİN prinsiplərinə uyğun olaraq ayrı-ayrı orqanların notlara və muğam fraqmentlərinə maksimal həssaslığı öyrənilməklə ölkəmizdə yeni diaqnostik üsul - muğam diaqnostikası yaradılıb.

Diskussiya şəraitində keçən görüşdə bir daha ənənəvi təbabətin müsbət rolu qeyd olunub, pasiyentlər isə nəticədən razı qaldıqlarını dilə gətiriblər.

# ATU əməkdaşları BMT-nin tədbirində çıxış ediblər

**ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və assistent Səbinə İsrafilova Beynəlxalq Davamlılıq Cəmiyyəti (ISC) və tərəfdaşlarının birgə hazırladığı BMT-nin 78-ci Ümumi Yığıncağı çərçivəsində məruzə ilə çıxış ediblər.**

"Elm və təhsil sahəsində qlobal elmi əməkdaşlıq və innovasiyaların genişləndirilməsi yolu ilə davamlı inkişafa nail olmaq" adlı IX Elmi Zirvə sammitində onların "Morfoloji fənlərin tədrisində interaktiv metodların rolu" mövzusunda çıxışı maraq doğurub. Zirvə sammitinin məqsədi qlobal elm mexanizmlərini və fəaliyyətlərini nümayiş etdirmək üçün elm sahəsində əməkdaşlıqları genişləndirmək idi. Əməkdaşlarımızın bu istiqamətdə töhfəsi isə Kahoot və Mentimeter kimi interaktiv üsullardan istifadə edərək, ənənəvi üsullarla müqayisədə histologiya dərslərində tələbələrin aktivliyinin və fənnə olan marağın artmasının təhlilinin aparılması olub. Belə ki, tələbələrin histoloji preparatların və elektronoqramların nümayişi ilə interaktiv sorğular və testlərə verdikləri cavablara əsasən liderlər siyahısı müəyyən edilib. Beləliklə, dərhal səhvlərini anlaya və bundan nəticə çıxararaq, fənni daha yaxşı mənimsəyə biliblər. Nəticədə tələbələrin ənənəvi üsullarla müqayisədə daha aktiv olmaları və dərsə marağın artması müşahidə edilib (müvafiq olaraq 20% və 15%). Məruzə iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Beynəlxalq elmi tədbirin bir paneli Azərbaycana həsr olunub

**Sentyabrın 19-dan 24-dək Şimali Kipr Türk Cümhuriyyətində Türkiyə Ailə Həkimləri Cəmiyyətinin (TAHV) təşkil etdiyi "Payız məktəbləri" layihəsi əsasında 17-ci beynəlxalq elmi konqres keçirilib. Tədbirə başda Türkiyə, ŞKTC və Azərbaycandan olmaqla 1000 nəfərdən artıq nümayəndə qatılıb.**

Konqresdə respublikamızı ATU-nun Ailə təbabəti kafedrasının müdiri, professor İbrahim İsayev və həmin kafedranın assistenti Lalə Qasımova təmsil ediblər. Konqresdə bir panel ayrıca olaraq Azərbaycanda ailə həkimliyinin problemlərinə həsr olunub. Professor İ.İsayev "Azərbaycanda ailə həkimliyinin yaranması və inkişafı", assistent L.Qasımova "Azərbaycanda ilkin səhiyyə xidmətinin dünəni və bu günü", həmçinin professor Mehmet Akman isə "Azərbaycanda ilkin tibbi yardım xidmətlərinin gücləndirilməsi" mövzularında məruzə ilə çıxış ediblər. Məruzələr böyük maraqla qarşılanıb və iştirakçılar tərəfindən geniş şəkildə müzakirə olunub.

Konqresdə professor İbrahim İsayev TAHV-ın idarə heyətinə üzv seçilib. Həmçinin qərara alınıb ki, gələcəkdə TAHV-in növbəti konqreslərindən biri Bakıda keçirilsin.

Məlumat üçün onu da bildirək ki, Türkiyə Ailə Həkimləri Cəmiyyətinin təşkil etdiyi bu elmi konqreslər "Payız məktəbləri" layihəsi əsasında ənənəvi olaraq hər ilin payız aylarında baş tutur.

# Azərbaycanlı cərrah beynəlxalq konqresin təşkilat komitəsində




**Bütün dünyada piylənmədən əziyyət çəkənlərin sayının artması bariatrik cərrahiyyənin aktuallığını daha da artırır. Sentyabrın 28-29-da Astana şəhərində keçirilən II KasBariMet beynəlxalq konqresi də bu sahədəki yeniliklərə və problemlərin müzakirəsinə həsr olunub.**

Konqresdə ATU-nun I Cərrahi xəstəliklər kafedrasının assistenti Taryel Ömərov iştirak edib. Tədbirə moderator qismində qoşulan azərbaycanlı mütəxəssis, həmçinin ölkəmizdə bariatrik-metabolik cərrahiyyənin uğurları haqqında çıxış edib. O, təkrar mədəkiçiltmə əməliyyatlarından da bəhs edib: "Canlı əməliyyat görüntülərini nümayiş etdirdiyim təqdimatım Orta Asiya dövlətlərindən gələn cərrahlar tərəfindən xüsusi maraqla qarşılandı. Həmin ərazidə bariatrik-metabolik əməliyyatlar yeni sayılır. Odur ki, belə əməliyyatların icrası, fəsadların qarşısının alınması üçün görüləcək tədbirlər, diqqət ediləcək məqamlar haqqında çıxışım həmkarlarımın ikiqat marağına səbəb oldu".

T.Ömərov tədbirdə Azərbaycan və Qazaxıstan bariatrik cəmiyyətləri arasında dostluq əlaqələrinin əhəmiyyətindən də söz açıb.

Yeri gəlmişkən, T.Ömərov oktyabrın əvvəllərində 4 gün davam edən 8-ci Beynəlxalq Piylənmə və Metabolik Xəstəliklər Cərrahiyyəsi və 3-cü Bariatrik və Metabolik Dietoloji Konqresinin təşkilat komitəsində də yer alıb. Konqresin elmi proqramının formalaşmasında böyük rolu olan əməkdaşımız, Azərbaycanda bu sahənin daha çox inkişafına nail olmağa çalışdıqlarını vurğulayıb.

O, TOSS-un fəxri prezidenti, professor Mustafa Taşkına və Beynəlxalq Bariatrik Klubun rəhbəri, professor Haris Xocaya xatirə hədiyyəsi təqdim edib.

# Tiroid cərrahiyyəsində son yeniliklər müzakirəyə çıxarılıb

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının cərrah-endokrinoloqu Azər Hümmətov sentyabrın 27-dən oktyabrın 1-dək ABŞ-ın paytaxtı Vaşinqtonda Amerika Tiroid Cəmiyyətinin təşkil etdiyi illik konfransda iştirak edib.**



Konfransda cərrah-endokrinoloqun "Endemik və qeyri-endemik bölgələrdə tiroid düyünlərinin əməliyyatönü diaqnostikasında ACR-TİRADS təsnifatının və patahistoloji nəticələrin əhəmiyyəti" mövzusunda poster çıxışı olub. Mövzu iştirakçıların diqqətini çəkib, toxunulan məsələlərlə bağlı maraqlanıblar.

Konfransda tiroid cərrahiyyəsində son yeniliklər, müasir cihazlarla tiroid və paratiroid əməliyyatlarının aparılması, xoşxassəli və bədxassəli tiroid düyünlərinə müasir yanaşma üsulları və taktikaları, tiroid ultrasəs müayinəsinin əhəmiyyəti, qalxanabənzər vəzinin differensiyası, bilavasitə reseptor səviyyəsində olan müalicə taktikaları və s. barədə iştirakçılara ətraflı məlumat verilib.

A.Hümmətov konfrans zamanı təşkil olunan kurslarda da iştirak edib.

**Oktyabrın 5-də Rezidentura və magistratura şöbəsinin və Tədris Cərrahiyyə Klinikasının birgə təşkilatçılığı ilə ATU-nun Anesteziologiya və reanimatologiya kafedrasının dosenti, klinikanın Ürək kateterizasiyası və angioqrafiya laboratoriyasının müdiri, invaziv kardioloq, t.ü.f.d Qalib İmanov gənc həkimlər və rezidentlər üçün "Kəskin ürək-damar çatışmazlığı" (etiopatogenezi, klinik variantları) mövzusunda mühazirə söyləyib.**

# Kəskin ürək-damar çatışmazlığı mövzusunda seminar keçirilib



Seminara moderatorluq edən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov əvvəlcə toplantıda iştirak edən həkim-müəllimləri Beynəlxalq Müəllim Günü münasibətilə təbrik edib. Daha sonra məruzəçinin bu sahədə aparıcı mütəxəssis olduğunu və universitet rəhbərliyinin bu seminarları diqqət mərkəzində saxladığını vurğulayaraq, gənc həkimləri və rezidentləri yaradılan bu imkandan maksimum faydalanmağa çağırıb.

Qeyd olunan xəstəlik barədə məlumat verən məruzəçi çıxışında bildirib ki, ürək çatışmazlığı kəskin və xroniki gedişata malikdir: "Ürək çatışmazlığı arterial hipertoniyalar, ürək qüsurları, miokarditlər, tac damarların çatışmazlığı: koronarsklerozlar, koronarspazmalar, tac damarların tromb kütlələri ilə tıxanması və nahiyə qan təchizatının pozulması - miokard infarktı nəticəsində ürəyin, daha doğrusu ürək əzələsinin gücə düşməsi nəticəsində meydana çıxır. Bu zaman qan dövranı durğunluğu ürək əzələsini normal təchiz edə bilmir. Əsas nasos funksiyasına malik sol mədəcik çatışmazlığı öz növbəsində kiçik qan dövranında durğunluğa səbəb olur ki, bu da təngnəfəslik, sianozlarla-göyərmələrlə, köpüklü qanhayxırmalarla, ağciyər ödemi, qaraciyərin böyüməsi ilə müşahidə olunur. Nəticə etibarilə orqan və toxumaların hipoksiyası və digər metabolizm pozğunluqları meydana çıxır".

Həkimin sözlərinə görə, kəskin ürək çatışmazlığı bir saatdan bir günə qədər inkişaf edir: "Buna səbəb isə ürək ritm pozğunluğu: taxikardiya, ya da bradikardiyalar, travma nəticəsində meydana çıxan ürək tamponadası, ürək qapaqçıqlarının vətər elementlərindən birinin qəfləti qırılması, infeksion miokardit, ağciyər emboliyası, miokard infarktıdır. Kəskin gedişatda meydana çıxan bu patoloji funksional pozğunluğa orqanizm hazır olmadığı üçün kompensasiya mərhələsi olmadan dekompensasiya mərhələsi başlayır.

Xroniki ürək çatışmazlığı isə bir aydan bir ilə qədər müddətdə inkişaf edir və uzun sürür. Bu proses ləng və uzun sürdüyü üçün orqanizmin kompensator mexanizmləri ilə ürək əzələsinin qalınlaşması, qan damarlarının daralması qan həcminin artması ilə xarakterizə olunur. Bu mərhələ kompensasiya olunan ürək çatışmazlığı adlanır".

Sözünə davam edən məruzəçi anadangəlmə və sonradan qazanılmış ürək qüsurlarından da bəhs edərək onların əlamətləri, gedişatı və təsnifatı, həmçinin səbəbləri, patogenezi və təzahürləri barədə iştirakçılara ətraflı məlumat verib.

Sonda müzakirəyə çıxarılan mövzu ətrafında sual-cavab şəklində müzakirə təşkil olunub.

# Rezidentlərə "İdiopatik Trombositopenik Purpura" mövzusunda məruzə oxunub

**Oktyabrın 5-də ATU-nun Rezidentura və magistratura şöbəsinin və Tədris Terapevtik Klinikasının birgə təşəbbüsü ilə "İdiopatik Trombositopenik Purpura" mövzusunda seminar kecirilib.**



Rezidentlərlə elmi seminarların keçirilməsinin əhəmiyyətindən danışan Tədris Terapevtik Klinikanın direktoru Fərid Eyvazov mütəxəssislərin təbabətin aktual problemlərinə dair məruzələrinin həmişə böyük maraqlı qarşılandığını bildirib.

Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov bu cür seminarların həm gənc həkimlər, həm də rezidentlər üçün səmərəli olduğunu, təmsil etdiyi şöbənin həmin seminarların təşkilinə xüsusi diqqət yetirdiyini vurğulayıb.

Bundan sonra həkim-hematoloq Ələmdar Cəfərovun adıçəkilən mövzu ilə bağlı məruzəsi dinlənilib. O, İdiopatik Trombositopenik Purpuranın immun sistemdə baş verən dəyişikliklər səbəbindən orqanizmin öz hüceyrəsini yad hüceyrə kimi qəbul edərək məhv etməsi olduğunu diqqətə çatdırıb: "Qanda trombositlərin miqdarı normalda 150-400 min arası olur. Trombositopeniya trombositlərin hər hansı səbəbdən 100 minin altına enməsinə deyilir. Trombositopeniya izolə (tək) və kombinə (anemiya, leykopeniya, leykositoz) şəklində qarşımıza çıxa bilir".

Həkim-hematoloq trombositopeniyaların yaranma mexanizminə görə 4 qrupa bölündüyünü deyib. Qeyd edib ki, birinci qrup trombositopeniya trombositlərin yetişməsindəki (sintezindəki) problemlərlə əlaqədar olaraq yaranır. İkinci qrup trombositopeniya trombositlərin parçalanması, üçüncü qrup anormal paylanması nəticəsində əmələ gəlir. Dördüncü qrupa isə yuxarıda göstərilən hallardan qarışıq formada ən çox rast gəlinəni - İmmun (idiopatik) Trombositopenik Purpura (İTP) daxildir: "İTP bəzən öz-özünə geri çəkilə, təkrarlana, xronikləşə bilən qanaxma (purpura), həmçinin halsızlıq, yorğunluqla müşayət olunan, xəstənin həyat keyfiyyətinə təsir edən autoimmun qanaxmalı trombosit xəstəliyidir. Bu zaman həm trombositlərin parçalanmasında, həm də istehsalında yaranmış problemlə əlaqədar gedən izolə özünü trombositopeniya şəklində bürüzə verir. Bu xəstəliyə bütün yaş qruplarında rast gəlinir".

Məruzədə xəstəliyin diaqnostikası və müalicə üsulları da öz əksini tapıb.

Müzakirələr zamanı klinikanın baş həkimi Fəridə Hacıyeva, II Daxili xəstəliklər kafedrasının dosenti Gülər Fətəliyeva və hematoloq Şəhla Şabanova da cıxış edərək rezidentlərlə fikir mübadiləsi aparıblar.

# Respublika Əczaçılarının 4-cü Konfransında təkliflər irəli sürülüb



**“Əczaçılıq Klubu” İctimai Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Əczaçılar Günü ərəfəsində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Respublika Əczaçılarının 4-cü Konfransı keçirilib.**

Tədbirdə Milli Məclis, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Tarif Şurası, KOBİA, AQTA, Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi, əczaçılıq şirkətlərinin nümayəndələri iştirak ediblər. Azərbaycan Tibb Universitetini Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərov, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva, Əczaçılığın toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev və fakültə əməkdaşları təmsil ediblər.

Konfransda əczaçılıq sektorundakı mövcud vəziyyət və inkişaf perspektivləri müzakirə olunub.

Səhiyyə nazirinin müavini Rasim İsmayılov çıxışında səhiyyə sahəsinin daim dövlət başçısının diqqət mərkəzində olduğunu vurğulayıb. Nazir müavini əczaçılıq sahəsində görülən işlər, bu sahədə nəzərdə tutulan tədbirlər və səhiyyənin rəqəmsallaşdırılması, dərman vasitələrinin beynəlxalq qeydiyyatının tanınması, elektron resept sisteminin tətbiqi barədə məlumat verib.

Çıxışlardan sonra konfrans panel iclaslarla işinə davam edib. Panellərdə "Elektron resept", "Qiymət siyasəti", "Yerli dərman istehsalı biznesinin inkişafı” mövzuları müzakirə olunub, bir sıra təkliflər irəli sürülüb.




# ATU TEC-in rəhbəri beynəlxalq konfransda iştirak edib

**Sentyabrın 17-20-də Azərbaycan Tibb Universitetinin Gənc Alimlər Şurasının və Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyətinin sədri, tibb elmləri doktoru Müşfiq Həsənov Moskvada keçirilən beynəlxalq konfransda iştirak edib.**

Konfransda onkoloji xəstəliklərin endoskopik üsulla müayinə və müalicəsi, əməliyyatdan sonrakı dövrün idarə olunması, laparoskopik əməliyyatların icrası ilə bağlı çoxsaylı məruzələr dinlənilib.

İştirakçılar eyni zamanda konfrans zalından əməliyyat otağında aparılan əməliyyatları canlı şəkildə izləyə biliblər.

Tədbirdə çıxış edən M.Həsənov həm ATU, həm də rəhbəri olduğu cəmiyyət adından iştirakçıları salamlayıb və təşkilatçılara plaket təqdim edib. O bu cür aktual mövzuya həsr olunmuş konfransın iştirakçılar üçün faydalı olacağına əminliyini bildirib.

Konfrans çərçivəsində ATU-nun əməkdaşı Rusiya və digər ölkələrin müvafiq qurumlarının rəhbərləri ilə səmərəli görüşlər keçirib, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.

Sonda tədbir iştirakçılarına beynəlxalq sertifikatlar təqdim edilib.

**Hər il oktyabrın 16-da Ümumdünya Anestezioloqlar Günü anestezioloq-reanimatoloqlar və tibbin bu sahəsinin mütəxəssisləri tərəfindən peşə bayramı kimi qeyd olunur.**

# 16 oktyabr Ümumdünya Anestezioloqlar Günüdür

## Dosent İsrail Məhərrəmbəyli: “Anestezioloq xəstənin taleyinə cavabdeh olan şəxsdir”



ATU-nun II Müalicə-profilaktika fakültəsinin dekanı, Anesteziologiya və reanimatologiya kafedrasının dosenti, Səhiyyə Nazirliyinin anesteziologiya və reanimatologiya üzrə eksperti İsrail Məhərrəmbəyli bildirir ki, reanimatologiya canlandırma ilə məşğul olan bir elmdir və 3 əsas istiqaməti var: reanimasiya, intensiv terapiya, anesteziya.

Onun sözlərinə görə, anesteziologiya əsasən ağrısızlaşdırma ilə məşğuldur və tarixi çox qədim zamanlara gedib çıxır: “Araşdırmalar göstərir ki, eramızdan əvvəl və eramızın ilk minilliyində anesteziya məqsədilə bir çox dərmanlardan istifadə olunub. Bu dərmanlar və üsullar primitiv mahiyyət daşıyıb. Yəni müəyyən bitkilərin yarpaqlarından, köklərindən istifadə etməklə xəstələrdə ağrısızlaşma aparılıb. Amma müasir anesteziologiyanın tarixi XVIII əsrin ortalarına təsadüf edir. Belə ki, 1846-cı il oktyabrın 16-da amerikalı diş həkimi Tomas Morton müəllimi, həkim və kimyaçı Çarlz Ceksonun tövsiyəsi ilə üz hissədən şişi götürmək üçün efir narkozu altında əməliyyat aparıb. Anesteziyaedici kimi o, dietil efirinin inhalyasiyasını tətbiq edib və tibb tarixində ilk dəfə olaraq ümumi narkoz anesteziya ilə əvəz olunub. Ona görə də oktyabrın 16-sı Dünya Anestezioloqlar Günü kimi qəbul edilib”.

İ.Məhərrəmbəyli müasir anesteziologiyanın inkişaf tarixinin şərti olaraq 6 mərhələyə bölündüyünü deyir: “Birinci mərhələ efir narkozuna qədərki dövrdür. Bundan sonra efir narkozunun tətbiqi mərhələsidir. Üçüncü mərhələ yerli anesteziologiyanın tətbiqidir. Bu mərhələdə göz həkimi Karl Koller göz əməliyyatında ilk dəfə olaraq kokain məhlulundan keyləşdirmə məqsədilə istifadə etmişdir. Dördüncü mərhələ venadaxili anesteziyadır ki, tətbiqinə 1902-ci ildə başlanılmışdır. Sonrakı mərhələlərdə isə bir çox kəşflərin, o cümlədən süni tənəffüs aparatlarının anesteziologiyaya tətbiqi bu sahənin inkişafına böyük təkan vermişdir”.

Azərbaycanda anesteziologiya-reanimasiya xidmətinin təşkilinə ötən əsrin 60-cı illərində başlanıldığını söyləyən mütəxəssis, anesteziologiyanın bir elm kimi 70-ci illərdən tədris edildiyini bildirir: “1974-cü ildə Azərbaycan Tibb Universitetində Anesteziologiya-reanimatologiya kafedrası açılıb və bu sahə üzrə ilk ixtisaslı kadrlar hazırlanıb. Kafedranın ilk yaradıcısı professor, əməkdar elm xadimi Abbas Axunbəylidir. Hazırda kafedraya Abbas müəllimin tələbəsi, professor İsfəndiyar İsmayılov rəhbərlik edir. Anesteziologiya məsuliyyətli bir sahədir. Anestezioloq isə xəstənin taleyinə cavabdeh olan şəxsdir. Ona görə də anestezioloqun qarşısında bir neçə mühüm vəzifə durur. O, ilk növbədə xəstənin vəziyyətini, anestezioloji riski düzgün qiymətləndirməyi bacarmalıdır. Hər bir anestezioloq effektli və təhlükəsiz anesteziologiya aparmağa borcludur. Çalışmalıdır ki, anesteziya zamanı xəstənin həyati vacib orqanlarında fəsadlar baş verməsin. Eyni zamanda cərrah üçün münbit bir şərait yaratmalıdır. Həm də anesteziya növünü düzgün seçməlidir ki, əməliyyat zamanı xəstənin həyatı təhlükədə qalmasın”.

Müsahibimiz Anesteziologiya və reanimatologi kafedrasının ATU-nun Tədris Terapevtik, Tədris Cərrahiyyə və Onkologiya klinikalarında anestezioloji xidmət apardığını vurğulayır. Qeyd edir ki, Tədris Cərrahiyyə Klinikasında artıq çoxsaylı anestezioloqlarımız var: “Klinikanın 20-dən artıq əməliyyat blokunda kardiocərrahi əməliyyatlardan tutmuş, transplantoloji əməliyyatlara qədər ən müasir, mürəkkəb əməliyyatlar həyata keçirilir. Həmin əməliyyatlar zamanı anestezioloji xidmət aparanlar ATU-nun məzunları və kafedranın əməkdaşlarıdır”.

Əvvəlki illərlə müqayisədə gənclərimizin bu sahəyə marağının xeyli artdığını diqqətə çatdıran dosent İ.Məhərrəmbəylinin sözlərinə görə, Tədris Cərrahiyyə Klinikasında 30-dan çox rezidentimiz fəaliyyət göstərir. Bu il də 20-dən çox rezident anesteziologiya ixtisası üzrə qəbul olunub. Artiq III kurs rezidentlərimiz sərbəst anestezioloji xidmət apara bilirlər.

**A.KAMRANOĞLU**

# "Süd vəzi xərçəngi ilə mübarizə aylığı” davam edir

## Dosent Nigar Mehdiyeva: Bu tip bədxassəli şiş halları artsa da, onun müalicəsində çox böyük nailiyyətlər əldə olunub



**“Statistikaya görə, son illər süd vəzi xərçəngi (SVX) bütün dünyada qadınlar arasında ən geniş yayılmış şiş növlərindən biridir və bədxassəli şişlər arasında birinci yeri tutur. Ötən il dünyada 2,5 milyon yeni SVX halı qeydə alınıb”. Bu sözləri oktyabr - “Süd vəzi xərçəngi ilə mübarizə aylığı” günlərində söhbətləşdiyimiz ATU-nun Onkoloji Klinikasının müalicə işləri üzrə direktor müavini, dosent Nigar Mehdiyeva deyib.**

O, bu xəstəliyin səbəb və nəticələri barədə ətraflı məlumat verib, qarşısının alması üçün erkən aşkarlanmanın vacibliyini vurğulayıb: “Erkən və adekvat diaqnostika onkoloji xəstəlik zamanı çox mühüm rol oynayır. Hər bir qadın 35 yaşdan sonra ildə bir dəfə həkim müayinəsindən keçməlidir. Çünki nə qədər tez müəyyən edilərsə, müalicə də bir o qədər uğurlu olar. Klinikamızdakı mövcud diaqnostik vasitələr apardığımız müalicəyə uyğundur. Ən son nəsil aparatlarla təchiz edilmiş laboratoriyalarımız üçün daim yeni reaktivlər alınır. Morfoloji müayinələrdə reaktivlərin ən müasir növləri də əlçatandır. Süd vəzi xərçənginin erkən diaqnostikasında ilk və mühüm rol oynayan skrininq metodu asan, rahat, az vaxt aparan, amma maksimal informasiya verən mammoqrafiya metodudur”.

N.Mehdiyevanın sözlərinə görə, süd vəzində yaranmış hər hansı bir xoşxassəli şişin bədxassəli şişə çevrilməsi üçün uzun müddət tələb olunur. Bəzən isə xoşxassəli şiş aşkar olan insanın düzgün olmayan həyat tərzi, zərərli vərdişləri, qeyri-sağlam qidalanması, hormonal preparatların nəzarətsiz istifadəsi və s. amillər bu müddəti qısaldaraq, şişlərin böyüməsinə və bədxassəli törəmələrin inkişafına səbəb ola bilər.

Həkim vurğulayıb ki, süd vəzi xərçənginin aşkarlanmasının pik yaş həddi 50-70 hesab edilir: “Təəssüf ki, son illərdə bütün dünyada olduğu kimi, bizdə də SVX ilə xəstələnmə göstəriciləri artır. Bu real artım həm daha erkən və məqsədyönlü diaqnostika sayəsində baş verir, həm də süd vəzi xərçənginin “cavanlaşması” müşahidə edilir. 20-30 yaşlı qadınlarda süd vəzində daha çox xoşxassəli şişlərə rast gəlinir. Bu yaşdan yuxarı qadınlarda isə adətən bədxassəli şişlər müşahidə olunur. 50-70 yaş isə süd vəzi xərçəngi üçün pik dövr hesab edilir. Bu yaşdan yuxarı qadınlarda SVX-ya rast gəlmə faizi aşağı olur. Qeyd edim ki, bir çox xəstəliklər də süd vəzlərinə öz mənfi təsirini göstərə bilər. Bunlardan sinir sistemi xəstəlikləri, qalxanvarı vəzidə olan müxtəlif dəyişikliklər, ginekoloji, genetik, bir çox endokrin-metabolik, qaraciyərə bağlı xəstəliklər və başqalarını göstərmək olar”.

Süd vəzi xərçənginin müalicə prosesindən də danışan mütəxəssis bildirib ki, ilk mərhələdə əksər bədxassəli şişlərdən cərrahi müalicə ilə tam qurtulmaq mümkündür: “Şüa müalicəsini əlavə etməklə, bu mərhələdə çox az hallarda süd vəzinin götürülməsi əməliyyatı aparılır. Bəzi hallarda isə endokrin terapiya xəstələrin residivsiz sağ qalma müddətini artırır. Artıq sonrakı mərhələlərdə kimya terapiya təyin olunur. Xəstəliyin IV mərhələsində isə nadir hallarda cərrahi üsulla müalicə aparılır. Bu mərhələdə daha çox kimyəvi terapiya, şüa müalicəsi və immunoterapiya metodları tətbiq olunur. Klinikamızda SVX-nin ən müasir müayinəsi, o cümlədən skrinninqi, son diaqnostik nailiyyətlərin istifadəsi ilə aparılan tru-cut biopsiya, əllənməyən şişlərin tellərlə işarələnməsi, kimyəvi dərman terapiyadan öncə törəmələrə kliplərin qoyulması və s. həyata keçirilir. Hazırki dövrdə nəinki orqansaxlayıcı əməliyyatlara üstünlük verilir, həmçinin orqanın təbii görünüşünü saxlamaq və hətta yaxşılaşdırmaq da mümkündür. Bu məqsədlə müxtəlif onkoplastik və rekonstruktiv əməliyyatlardan istifadə olunur. Son illər SVX hallarının artmasına baxmayaraq, onun müalicəsində çox böyük nailiyyətlər əldə edilib”.

N.Mehdiyeva onu da söyləyib ki, 1992-ci ildən etibarən Ümumdünya Səhiyyə Təşkilatı oktyabrı dünyada “Süd vəzi xərçəngi ilə mübarizə aylığı” elan edib: “Keçən il olduğu kimi, bu il də oktyabrın 27 və 28- də “Hilton” otelində II Bakı Beynəlxalq Süd Vəzi Xərçəngi Konqresi keçiriləcək. Onkoloji Klinika və kafedramızın təşkilatçılığı ilə baş tutacaq konqresə Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Milli Onkologiya Mərkəzi, Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası və Azərbaycan Onkoloqlar Cəmiyyəti də dəstək verəcək. Tədbirdə ölkəmizin aparıcı mütəxəssisləri ilə yanaşı, dünyanın bir çox yerlərindən dəvət olunmuş və bu sahədə tanınmış mütəxəssislər də iştirak edəcək”.

**M.ƏLƏKBƏRLİ**

# Universitetimiz endokrinoloqların beynəlxalq konqresində təmsil olunub



**Hər il ənənəvi qaydada keçirilən Avropa uşaq endokrinoloqlarının 61-ci beynəlxalq elmi konqresi sentyabrın 21-dən 23-dək Niderlandın Haaqa şəhərində baş tutub. Konqresin işində dünyanın aparıcı ölkələrindən gəlmiş 5000-ə yaxın nümayəndə iştirak edib.**

Tədbirdə Azərbaycan Tibb Universitetini II Uşaq xəstəlikləri kafedrasının dosenti, t.e.d. Gündüz Əhmədov və assistent İlsur Novruzov təmsil ediblər. Onların "Uşaqlarda osteogenez imperfekta və onun klinik xüsusiyyətləri" mövzusunda məruzəsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Məruzədə qeyd olunub ki, bu patologiyaya uşaqlar arasında az rast gəlinməsinə baxmayaraq, xəstəliyin diaqnostikası və müalicəsi indiyədək tam öyrənilməyib. Müəlliflər bu tip patologiyalı uşaqların klinik, laborator diaqnostikası, müalicəsini ətraflı araşdırıqlarını vurğulayaraq, əldə olunan nəticələri iştirakçıların nəzərinə çatdırıblar.

Bundan başqa, konqresdə son illərdə uşaqlarda piylənmə, onun yaranma səbəbləri və müalicəsinin aparılması kimi məsələlər diqqət mərkəzində olub. Bu baxımdan piylənmənin müalicəsi üçün Liraqlütid tərkibli dərman preparatlarının istifadəsi mütəxəssislərdə maraq doğurub. Konqresdə, həmçinin uşaqlarda boy problemləri, cinsi inkişaf pozulmaları, böyrəküstü vəzin patalogiyaları, şəkərli diabet mövzularından da ətraflı söhbət açılıb. Məruzələrdə göstərilib ki, son illərdə uşaqlarda endokrinoloji patologiyaların müasir müalicəsinə də xeyli diqqət ayrılır. Belə ki, gündəlik boy hormonu inyeksiyaları əvəzinə, həftəlik inyeksiyaların artıq istifadəsinin, adrenal patologiyalarda hidrokortizonun sutka ərzində düzgün paylanmasını təmin edən yeni preparatların və uşaqlarda hiperxolesterinemiyanın müalicəsində istifadə edilən müasir statin preparatların da təqdimatı olub.

Qeyd edək ki, əməkdaşlarımızın belə bir nüfuzlu tədbirdə iştirak etməsi universitetimizin beynəlxalq nüfuzunun yüksək olmasından irəli gəlir.

**Universitetimizin Sitologiya, embriologiya və histologiya kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Aygün Əliyarbəyova qardaş Türkiyə Respublikasında Cümhuriyyət quruluşunun 100 illiyinə həsr olunmuş 26-cı Beynəlxalq Türkiyə Elektron Mikroskopiya Konqresində iştirak edib.**

## Türkiyə Elektron Mikroskopiya Konqresi keçirilib



A.Əliyarbəyovanın dediyinə görə, 1971-ci ildə professor Türkan Erbenginin başçılığı ilə əsası qoyulan Türk Elektron Mikroskopiya Dərnəyinin təşkil etdiyi bu konqresdə 300-ə yaxın tezis qəbul olunsa da, 500-ə yaxın iştirakçı qeydiyyatdan keçib. Tədbirdə həm Türkiyə, həm də digər ölkələrdən mikroskopiya sahəsində sözünü demiş mütəxəssislər, tanınan alimlər iştirak ediblər.

Dünyaya meydan oxumuş COVID-19 pandemiyası dövründən ağciyər xəstəlikləri və onun patogenezində iştirak edən faktorlar həm ölkəmizdə, həm də xaricdə aparılan elmi-tədqiqat işlərində əsas istiqamət kimi dəqiqliklə öyrənilməkdədir. A.Əliyarbəyova 2021-ci ildən elmlər doktoru proqramı üzrə dissertanturaya qəbul olunaraq, "Makrofaq miqrasiyası inhibitor faktoru (MIF) təsirindən ağciyərlərin strukturunda və MİF ekspressiyasında baş verən dəyişikliklər" mövzusunda çalışır. Konqresdə məruzə ilə çıxış edən əməkdaşımız, əldə etdiyi məlumat və nəticələri histoloq və morfoloqlarla bölüşüb. O, iştirakçıları makrofaq miqrasiyası inhibitor faktorunun bir sıra xəstəliklərin patogenezində olan rolu və təsiri haqqında məlumatlandırıb, onun ağciyərlərin struktur elementlərində törətdiyi morfoloji dəyişikliklərin nəticələrini təqdim edib. Əməkdaşımızın çıxışı, eləcə də poster təqdimatı maraqla qarşılanıb. Bundan başqa, A.Əliyarbəyova Eskişehir Texnik Universiteti və Anadolu Universitetində təşkil olunmuş kurslarda iştirak edərək, sertifikatla təltif olunub.

**Günel Aslanova**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın artırılması" mövzusunda təlimlərdə iştirakı barədə sertifikat.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

# ATU-nun məsləhətçi-professoru dünyasını dəyişib



**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Tanınmış həkim, Yoluxucu xəstəliklər kafedrasının məsləhətçi-professoru Nərgiz Hüseynova dünyasını dəyişib.**

Hüseynova Nərgiz Mir Bağır qızı 1944-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. O, 1961-ci ildə 132 saylı orta məktəbi bitirərək N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Pediatriya fakültəsinə daxil olub. 1967-70-ci illərdə Caparidze adına 3 saylı xəstəxanada həkim-pediatr kimi fəaliyyət göstərib. Daha sonra Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda aspiranturada oxumaqla yanaşı, həm də burada 1975-ci ilədək assistent vəzifəsində çalışıb.

1975-89-cu illərdə Pediatriya İnstitutunda böyük elmi işçi olan Nərgiz xanım 1989-90-cı ildə Azərbaycan Tibb Universitetinin Uşaq yoluxucu xəstəlikləri kafedrasında assistent işləyib. O, Moskva şəhərində doktorluq elmi işini müvəffəqiyyətlə başa çatdırdıqdan sonra 1991-ci ildə professor elmi adına layiq görülüb. N.Hüseynova 2012-2016-cı illərdə ATU-nun Uşaq yoluxucu xəstəlikləri kafedrasına rəhbərlik edib.

Yeni Azərbaycan Partiyasının üzvü kimi, daim universitetin elmi- ictimai işlərində və eləcə də təlim-tədris prosesində fəallıq göstərən Nərgiz xanım 2019-cu ildə "Əməkdar müəllim" fəxri adı ilə təltif olunub. 2022-ci ildə N.Hüseynova Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının qərarı ilə Yoluxucu xəstəliklər kafedrasının məsləhətçi-professoru seçilib.

Fəaliyyəti dövründə doğma kollektivə qarşı hər zaman həssas və diqqətli olan Nərgiz xanım həm də dərs dediyi tələbələrinin dərin rəğbətini qazanıb.

N.Hüseynovanın əziz xatirəsi kollektivin və onu yaxından tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

*ATU-nun rektorluğu və Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Fakültənin dekanı:**
- İctimai səhiyyə fakültəsi

**Kafedraların müdirləri:**
- Travmatologiya və ortopediya kafedrası
- Azərbaycan dili kafedrası
- Anesteziologiya və reanimatologiya kafedrası
- İctimai fənlər kafedrası
- Xarici dillər kafedrası

**Kafedraların professorları:**
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer (0,5 vahid)
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,25 vahid)
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 3 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer (0,75 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 3 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 2 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 2 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 2 yer
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer (0,75 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- Farmakoqnoziya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,75 vahid)
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)

**Elmi Tədqiqat Mərkəzi:**
- Bioloji kimya kafedrası üzrə elmi tədqiqat laboratoriyası (böyük elmi işçi) - 1 yer (0,5 vahid)

**Elmi Tədqiqat Mərkəzi:**
-Bioloji kimya kafedrası üzrə elmi tədqiqat laboratoriyası (kiçik elmi işçi) - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək-dir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Etibarsız sayılır

Ali Maddahi Abeshahmadin (qrup 419A4a) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın professoru Nəriman Mövsümova həyat yoldaşı

**Mehriban xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın əməkdaşı Günay Əliyevaya anası

**Nərgiz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0017
Sayı 800